# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## Rayon icra hakimiyyətində geniş müşavirə





Fevralın 9-da Qəbələ Rayon İcra Hakimiyyətində 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir.

Müşavirədə rayonun idarə və müəssisələrinin rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Eləcə də müşavirəyə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov və Azərbaycan Respublikası Prezidenti Administrsiyasının məsul işçisi Rüfət Əliyev dəvət olunmuşdu.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və qonaqlar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək memoriala gül dəstələri qoymuş və ulu öndərin əziz xatirəsini ehtiramla yad etmişlər.

Qəbələ Mədəniyyət Mərkəzində sosial-iqtisadi nailiyyətlərə həsr olunmuş sərgi ilə tanışlıqdan sonra davam edən müşavirəni giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açmışdır. O, Qəbələ rayonunda 2016-cı ildə sosial-iqtisadi sahədə görülən işlərə və 2017-ci ildə qarşıda duran vəzifələrə dair ətraflı hesabat məruzəsi etmişdir. (Məruzənin mətni qəzetimizin 9 fevral 2017-ci il tarixli sayında dərc edilmişdir).





Məruzə ətrafında müzakirələr olmuşdur. Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Rüfət Əliyev, Qəbələ Regional «ASAN xidmət» Mərkəzinin direktoru Əbdül Əliyev, şəhər 2 nömrəli tam orta məktəbin direktoru, Respublika Bilik Fondunun rayon təmsilçisi Təranə Səlimova, sahibkar Oqtay Əzizov, fəal gənclərin nümayəndəsi Aynur Qədirova və ailə fermer təsərrüfatının rəhbəri Aydın Mirzəliyev çıxış etmişlər.

Müşavirədə qərar layihəsi qəbul edilmişdir.

Sonra rayon ictimaiyyəti nümayəndələri tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunmuşdur.

Yekunda rayonun sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs RİH-nin Fəxri Fərmanları ilə təltif olunmuş və onlara qiymətli hədiyyələr verilmişdir. YAP üzvlüyünə yeni qəbul edilən gənclərə isə partiya biletləri təqdim olunmuşdur.

✍ **Varis YAQUBOV.**
***«Qəbələ».***
**İlkin Vəlizadə.**

**(Ardı 3-cü səhifədə).**

## Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə Qəbələ rayon ictimaiyyəti nümayəndələrinin MÜRACİƏTİ

**Möhtərəm cənab Prezident!**

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı dərin məzmunlu nitqinizdə ötən ildə əldə edilən uğurlar hərtərəfli təhlil edilmiş, 2017-ci ildə görüləcək işlər geniş qeyd olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf xəttinin Sizin tərəfinizdən böyük məharətlə davam etdirilməsinin nəticəsində Azərbaycan sürətli inkişaf yolundadır. Sizin qeyd etdiyiniz kimi, ötən il ölkə iqtisadiyyatı üçün uğurlu il olmuşdur. 2016-cı ildə Azərbaycanın sosial-iqtisadi inkişafı təmin olunmuş, nəzərdə tutulan bütün layihələr icra edilmişdir. Ölkəmizdə aparılan islahatlar dərinləşmiş, dövlətimizin beynəlxalq nüfuzu daha da artmışdır. Əlbəttə, bu nailiyyətlərin təməlində uzun illər aparılan düşünülmüş iqtisadi siyasət və məqsədyönlü layihələr dayanır. İqtisadiyyatımızın uğurlu inkişafı, əhalinin sosial müdafiəsinin yüksək səviyyədə təşkili, regional inkişaf proqramının davamlı icrası hər bir ölkə vətəndaşında böyük iftixar hissi doğurur.

Sizin rəhbərliyinizlə əldə edilən nailiyyətlərə görə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır.

**Möhtərəm cənab Prezident!**

Uğurla həyata keçirilən sosial-iqtisadi proqramlar ölkəmizin müstəqil siyasətinin davamlı inkişafına, Azərbaycan xalqının milli maraqlarının müdafiəsinə yönəlmişdir. İqtisadiyyatımızın inkişaf səviyyəsi mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Sizin tərəfinizdən 2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi onu deməyə əsas verir ki, tarixi "İpək yolu"nda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mənəvi rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və etnik qrupların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi daha da tanınacaq, inkişaf edəcəkdir. 2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi respublikamızda bu gün gerçəkləşdirilən siyasətin tolerantlıq prinsipi ilə yanaşı islam dininə də sadiq qalmasının bariz nümunəsidir.

2016-cı ilin yekunları bir daha göstərir ki, ölkəmizin işıqlı sabahına hesablanmış müdrik siyasətiniz Azərbaycan dövlətini, onun müstəqilliyini daha da möhkəmləndirir. Ölkəmizin əsas inkişaf dinamikasını, iqtisadi gücümüzü müəyyən edir və iqtisadi islahatların dərinləşməsində Azərbaycan böyük uğurlara imza atır.

Sizin tərəfinizdən həyata keçirilən hərtərəfli islahatlar, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin ildən-ilə yüksəlməsi və Azərbaycanın dünya iqtisadi sistemində mühüm yer tutması Qəbələ rayon ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. İnanırıq ki, 2017-ci ildə uğurlarımız daha da artacaq, Azərbaycan beynəlxalq müstəvidə öz mövqelərini daim möhkəmləndirəcəkdir

**Möhtərəm cənab Prezident!**

Sizə müstəqil ölkəmizin dinamik inkişafı və xalqımızın daha işıqlı gələcəyi naminə gərgin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, uzun ömür, möhkəm can sağlığı arzu edirik!

Tanrı Sizi qorusun!

***Müraciət Qəbələ rayon ictimaiyyətinin nümayəndələri tərəfindən 9 fevral 2017-ci il tarixdə «2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları»na həsr olunmuş iclasda qəbul edilmişdir.***